Respublika.- 2019.- 4 aprel.- S.6.



# Fədakar təhsil işçisi



**Onun haqqında müəyyən qədər məlumatlı idim. Nairə müəllimin rayonun təhsil öncülü, ictimaiyyət fəallarından olduğunu bilirdim. Məktəb direktorunun şəxsi keyfiyyətləri, iş təcrübəsi barədə təsəvvürlərimiz müəllim, şagird və valideynlərlə etdiyimiz söhbətlərdən sonra tam formalaşdı. Maraqlıdır ki, onun barəsində hamı ürək dolusu ancaq müsbət fikirlər söylədi. Müəllimlər 30 ilə yaxın bir kollektivdə çalışdıqlarını, öz yetirmələri kimi onunla fəxr etdiklərini bildirdilər.**

Söhbətimiz Qusar şəhərindəki **6 saylı tam orta məktəbin direktoru Nairə Kliçova** haqqındadır.

O, 1992-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunun rus dili və ədəbiyyatı fakültəsini bitirib. Əmək fəaliyyətinə 1995-ci ildə Qusar şəhər 6 saylı tam orta məktəbində qrup tərbiyəçisi kimi başlayıb. Sonra məktəbdə müəllim kimi çalışıb. 1999-cu ildə məktəbin sinifdənxaric və məktəbdənkənar işlər üzrə direktor müavini, 2012-ci ildən isə həmin məktəbin direktoru təyin olunub. Ölkə Prezidentinin 2018-ci il 1 mart tarixli Sərəncamına əsasən təhsil sahəsində səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Peşəsini ürəkdən sevən, bacarıqlı təhsil işçisi olan Nairə müəllim rəhbərlik etdiyi məktəbdə sağlam mənəvi iqlim yaradıb. Təhsil ocağında ciddi nizam-intizam hökm sürür. Ən çox diqqət çəkən cəhət odur ki, məktəb direktoru buna inzibatçılıq, amirlik üsulu ilə deyil, yüksək təşkilatçılıq qabiliyyəti və şəxsi iş nümunəsi ilə nail olub. Bütün günü məktəbin divarları arasında onun qayğıları ilə yaşayan, burada iş ritmini düzgün nizamlayan bu təcrübəli pedaqoq ən əvvəl təhsilin keyfiyyətinə diqqət edir. Fənn müəllimləri ilə ardıcıl surətdə işləyir. Deyir ki, əsas vəzifəmiz sabahın elmli, təhsilli, əxlaqlı, sağlam düşüncəli, vətənpərvər, layiqli vətəndaşını yetişdirməkdən ibarətdir.

Məktəbin direktoru Nairə Kliçova pedaqoji kollektivin qazandığı uğurlardan və qarşıda duran vəzifələrdən danışaraq dedi:

– Şagirdlərimiz arasında xüsusi istedada malik uşaqlar var. Mübaliğəsiz deyirəm: gözümün işığıdır bu uşaqlar. Onları həmişə diqqətdə saxlayırıq. Müəllimlərlə birlikdə çalışırıq ki, belə istedadlı uşaqları vaxtında üzə çıxaraq. On birinci sinifdə oxuyan Diana İbrahimova, Fariz Ramazanov, Elida Abullayeva, Pərişan Mirhacıyeva, onunculardan Vüqar Niftəliyev, Mədinə Yüzbəyova, doqquzuncu sinif şagirdi Rita Qayıtmazova müxtəlif fənlər üzrə xüsusi bacarığa malikdirlər. İngilis dili üzrə Elida Abdullayeva bu dili daha mükəmməl öyrənmək üçün tətil müddətində İngiltərənin London şəhərində bir müddət ingilis ailəsi ilə bir yerdə yaşaması ona bu dili daha mükəmməl öyrənilməsinə imkan vermişdir. Gələcəkdə onun bu sahənin yaxşı mütəxəssisi olmasına heç şübhəmiz yoxdur. Daha bir istedadlı şagirdimiz Diana İbrahimovanın müxtəlif janrda çəkdiyi rəsmlərə baxanda onun hansısa məşhur rəssamın əl işləri olduğunu düşünürsən. Halbuki bu bizim fəxr etdiyimiz şagirdin - Diananın uşaq təxəyyülünün, əl qabiliyyətinin məhsuludur. Belə misallar çoxdur. Qeyd etmək istəyirəm ki, istedadlar üçün məktəbdə "Kiçik akademiya" yaratmışıq. Onlar üçün ayrıca proqram tərtib olunub. Şagirdlər referat mövzular üzərində işləyir, sonra onların təqdimatlarını keçiririk. Bununla da biz şagirdlərin istedadını daha geniş üzə çıxarmağa nail oluruq.

Hazırda məktəbdə həm Azərbaycan, həm rus bölmələrində 956 nəfər şagird təhsil alır. 6 saylı məktəbin uğurları ildən-ilə artır. Müqayisə üçün deyək ki, 2015-2016-cı tədris ilində məktəbi bitirən şagirdlərin 20 nəfəri, 2016-2017-ci dərs ilində 24 nəfəri, 2017-2018-ci tədris ilində isə 30 nəfəri ali məktəblərə daxil olmuşdur. Ötən il 8 nəfər məzunumuz isə orta ixtisas məktəblərinə qəbul olunmuşdur. Tələbə adını qazanan ötənilki məzunlarımızın 10 nəfəri xarici ölkələrin ali məktəblərində təhsil alırlar. Bu günlər məktəbimizin şagirdləri respublika-fənn olimpiadasına ciddi hazırlaşırlar. Artıq onların bir neçəsi zona turunun qalibidirlər. Şagirdlərimizin mütaliəsinə diqqət yetiririk. Hər dəfə siniflərə baş çəkəndə onlara çoxlu kitab oxumağı tövsiyə edirəm. Məktəbdə vətənpərvərlik mövzusunda, azərbaycançılıq ideologiyasının təbliği istiqamətində "dəyirmi masa"lar, konfranslar, ədəbi-bədii gecələr keçiririk. "Nəsimi ili" çərçivəsində dahi Azərbaycan şairinin yubileyinə biz də çox ciddi hazırlaşırıq. Bunun üçün geniş tədbirlər planımız var.

N.Kliçova təkcə işlədiyi məktəbdə deyil, rayon ictimaiyyəti arasında da kifayət qədər hörmət, nüfuz sahibir. Adı mötəbər iclaslarda, yığıncaqlarda çəkilir. O, həm də YAP Qusar rayon təşkilatı, Qadınlar Şurasının üzvüdür. YAP fəalı kimi o, vaxt tapıb uzaq kəndlərdə belə təhsil müəssisələrində olur, işləyən evdar qadınlarla söhbətlər aparır, onların qayğıları, həyat şəraiti ilə maraqlanır. Müəyyən problemlərin həlli üçün səy göstərir. O, həmçinin 51 saylı Qusar Seçki Dairəsinin məktəbdə fəaliyyət göstərən 6 nömrəli seçki məntəqəsinin sədridir.

Müsahibimin həm də mehriban, nümunəvi ailəsi var. Həyat yoldaşı ali təhsilli mühəndisdir, iş adamıdır. Nairə xanım iki oğul anasıdır. Böyük oğlu Milli Aviasiya Akademiyasını bitirib. Hazırda Daxili Qoşunlarda həqiqi hərbi xidmətdədir. Kiçik oğlu isə VIII sinif şagirdidir.

Onunla söhbət etdikcə, yadıma böyük rus yazıçısı L.N.Tolstoyun bu dəyərli sözləri düşdü: "Ən yaxşı tərbiyəçi - yaxşı nümunədir". Bir az əvvəl iş yoldaşlarından onun haqqında eşitdiyim kimi: Nairə xanım təkcə yaxşı məktəb rəhbəri deyil, yaxşı insan kimi də hamıya nümunədir.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**